**AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**

**F. KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI**
**ELMİ-METODİKA ŞÖBƏSİ**

# "Mütaliəyə cəlb etmənin yeni formaları"

**(F.Köçərli adına Respublika Uşaq Kitabxanasının təcrübəsi əsasında)**

**Bakı - 2010**

Tərtib edən: Xəyalə Xəlilova – F.Köçərli adına Respublika Uşaq Kitabxanası elmi-metodika şöbəsinin baş kitabxanaçısı

Redaktor: Zahirə Dadaşova – F.Köçərli adına Respublika Uşaq Kitabxanası elmi-işlər üzrə direktor müavini

## Tərtibçidən

Mütaliə hər bir insanın şəxsiyyət kimi formalaşmasında böyük rol oynayır. Belə ki, insan mütaliə edərək öz dünyagörüşünü, biliklərini, həyat təcrübəsini, mənəviyyatını, nitq qabiliyyətini daha da artırır. Mütaliənin xeyirlərini sadalamaqla yeni bir kitab ərsəyə gətirmək olar.

Uşaqlarda mütaliə vərdişlərinin erkən yaşlarda aşılanması olduqca vacib amillərdən biridir. Çünki çox mütaliə edən uşaqların intellekti daha sürətlə inkişaf edir. Bir uşaq kitabxanası olaraq F.Köçərli adına Uşaq Kitabxananın əsas məqsədi uşaqlarımızın gələcək həyatına yeni dəyərlər gətirmək, tez-tez dəyişən, inkişaf edən rəngarəng dünyamızda uşaqlarımızın mütaliə aləmini zənginləşdirmək, dünyagörüşünü artırmaq, hər cürə yeniliklərə qarşı onların daha savadlı, daha zəkalı böyüməsinə təkan verməkdir. Bu məqsədlə də kitabxanamız uşaqlara mütaliə etmək vərdişlərini aşılamaq üçün hazırlamış olduğu vəsaiti sizə təqdim edir. Vəsait "4-7 yaş uşaqlarla iş" və "8-16 yaş arası uşaqlarla iş" bölməsindən ibarətdir. Vəsaitdə kitabxanamızın öz iş təcrübəsi əsas götürülmüşdür.

# GIRIŞ

İstər ümumtəhsil, istərsə də ali və orta ixtisas məktəblərinin tədris proqramında nəzərdə tutulan biliklər insanın həyata fəal müdaxiləsi üçün kifayət deyildir. Təcrübələr göstərir ki, heç bir ali məktəb öz məzunu olan mütəxəssisə müəyyən ixtisas üzrə müasir həyatın tələbi həcmində məlumat və biliklər məcmuunu verə bilmir. Bu isə təbii haldır. Çünki müəyyən vaxtla məhdudlaşan ali və orta ixtisas təhsili məktəblərinin proqramları lazımi bilikləri tam şəkildə özündə əks etdirmək imkanına malik deyildir. Ona görə də zamanın tələbinə uyğun olaraq rəsmi təhsillə şəxsi təhsil mütaliəsi paralel getməlidir. Bu baxımdan mütaliə mühüm elmi-nəzəri problemdir.

Geniş oxucu kütləsi arasında kitab təbliğini və oxucu mütaliəsini istiqamətləndirməyin elmi əsaslarını təhlil edən mütaliə nəzəriyyəsində təkmilləşmə prosesi gedir. Müasir kitabxanaşünaslıq mütaliənin sosial, sosial psixoloji və pedaqoji problemlərinin, eyni zamanda onun ictimai həyata təsirinin tədqiqi sahəsində geniş nailiyyətlər qazanmışdır.

Kitabxanalar meydana gəldiyi gündən müasir günə qədər, cəmiyyətin və onun hər bir üzvünün tələbatını ödəmək və əsrlər boyu toplanmış informasiyanı gələcək nəsillərə çatdırmaq funksiyasını yerinə yetirirlər.

Mütaliənin mahiyyətini açarkən məlum olur ki, mütaliə hər hansı bir mətndə verilmiş məlumatı əxz etməyə yönəlmiş, psixoloji proses olub, kommunikasiya-əlaqə fəaliyyətidir.

Mütaliə həm ayrı-ayrı fərdlərin, həm də bütövlükdə cəmiyyətin həyatının bütün sahələrinə bilavasitə təsir edir. Buna görə də mütaliəni bəşəri problem kimi qiymətləndirmək lazımdır. Informasiyalaşmış cəmiyyətin formalaşması və tərəqqisi mütaliə prosesinin nəticəsidir. Cəmiyyətin bütün inkişaf istiqamətlərini insan təfəkkürü formalaşdırmaqla yanaşı təkmilləşdirir. Mütaliə isə insan təfəkkürünü zənginləşdirir, düşünmə qabiliyyətini artırır.

Informasiyalaşdırılmış cəmiyyətə keçidlə əlaqədar olaraq kitabxanaların əhaliyə xidmət formaları zamanın tələbinə uyğun dəyişdirilməlidir. Xüsusilə də bu məsələyə uşaq və məktəb kitabxanalarında böyük diqqət yetirilməlidir. Belə ki, uşaqlarda təfəkkürün və digər şəxsi keyfiyyətlərin formalaşması məhz mütaliə prosesi zamanı baş verir. Yəni uşaq kitabxanalarında mütaliə sistemli və ardıcıl təşkil edilməlidir. Bu da onların təfəkkür tərzinin formalaşmasına müsbət təsir göstərir. Uşaq təfəkkürü hələ tam formalaşmamış olduğundan onların mütaliəsinə nəzarət, rəhbərlik etmək, istiqamətləndirmək zəruridir. Uşaqlıq dövründən yeniyetməlik dövrünə və digər yaş dövrünə keçiddə uşaqlar qarşılarına çıxan müxtəlif problemləri həll etmək üçün tələb olunan vərdiş və təcrübəni kitabxananın bilavasitə iştirakı ilə təşkil edilən mütaliənin köməyi ilə qazanırlar. Buna görə də uşaqlarda mütaliə mədəniyyəti tərbiyəsi formalaşdırılması ilə həm ailədə, həm də pedoqoji qaydada məktəblərdə və kitabxanalarda məşğul olunmalıdır. Çünki bu günün uşağı gələcəkdə bu resurslarının istifadəçisidir və uşağın gələcəkdə bu resurslardan necə istifadə etməsi kitabxanaçıdan bilavasitə asılıdır. Bu zaman uşaqlara fərqli yanaşmaq vacibdir. Çünki onlar kitabxanaçının köməyinə həmişə dərin ehtiyac duyurlar. Kitabxanaçı uşaqların mütaliəsinə rəhbərlik edərkən üç əsas məsələyə diqqət yetirməlidir.

1. Kitab seçməkdə uşağa kömək etmək;
2. Seçilən kitabın oxunmasına həvəs yaratmaq;
3. Seçilən kitabın səmərəli mütaliəsi üçün səmərəli istiqamət vermək.

## I Bölmə. 4-7 yaş uşaqlarla iş

Bildiyimiz kimi hər bir insanda dünyagörüşün, tərbiyənin, vətənpərvərlik, xeyirxahlıq, vətənə xalqa bağlılıq kimi müsbət keyfiyyətlərin formalaşması məhz uşaqlıq dövrünə təsadüf edir. Bu kimi keyfiyyətlərin azyaşlılara aşılanmasında mütaliənin rolu əvəzsizdir. Azyaşlıların mütaliəyə cəlb edilməsi olduqca ciddi bir məsələdir ki, belə mühüm bir vərdişin uşaqlara aşılanması kimi bir öhdəlik kitabxanaların üzərinə düşür. Belə ki, kitabxanalar da bu mühüm vəzifəni müəyyən iş prinsipi əsasında həyata keçirməli, düzgün istiqamət seçməlidirlər. Belə mühüm bir vəzifənin öhdəsindən gəlməyinizi daha da asanlaşdırmaq üçün görüləcək tədbirləri F.Köçərli adına Respublika Uşaq Kitabxanasının iş təcrübəsi əsasında sizə təqdim edirik.

Kitabxananı azyaşlı oxuculara sevdirmək üçün işə kitabxananın girişindən başlamaq lazımdır. Bu səbəbdən də girişdə uşaqları kitabxanaya cəlb etmək məqsədilə mütaliəyə marağı artıracaq, şüar və ya sitat yazılmalıdır. Yazı rəngli və iri şriftlərlə qeyd olunmalıdır. Bildiyimiz kimi kiçik yaşlı uşaqlar gördüklərinin təsiri altına daha tez düşürlər. Elə bu səbəbdən də kitabxananın dizaynının burada rolu böyükdür. Buna görə də uşaq kitabxanaları rəngarəng və uşaqların zövqünə uyğun olaraq dizayn edilməli, nağıl qəhrəmanlarının, cizgi filmlərinin şəkillərindən, kuklalarından istifadə edilməlidir. Belə ki, kitabxanaya daxil olan uşaqların özlərini sanki sevdikləri nağıl qəhrəmanlarının əhatəsində hiss etmələri onların kitab oxumağa olan marağını daha da artıra bilər. Uşaqları mütaliəyə cəlb etmək üçün təkcə kitabxananın girişində deyil, eyni zamanda müvafiq otaqlarda da cəlbedici, mütaliə həvəsini artıra biləcək şüarların yazılması da vacibdir. Belə ki, kitabxanamız son dövrün sevimli yazıçısı olan Varisin kitabında qeyd olunmuş "Kitab oxumağın vaxtı yetişdi" sözlərini bu günki tədbirimizin şüarı kimi götürmüşdür. Sizin də kitabxananızda istifadə edə biləcəyiniz bir-birindən maraqlı sitatları sizə təqdim edirik.

**1.** Kitablarım mənə çatacaq qədər böyük bir krallıqdır. (Shakespeare)
**2.** Mən, kitablarımı yaratmadan əvvəl, kitablarım məni yaratdılar. (Montaigne)
**3.** Kitabsız yaşamaq; kor, kar, dilsiz yaşamaqdır. (Seneca)
**4.** Bu günün gerçək universiteti, bir kitabxanadır. (Carlyle)
**5.** Kitab, tək ölümsüzlükdür. (Rufus Choate)
**6.** Əxlaqa uyğun ya da zidd kitab deyə bir şey yoxdur. Kitablar ya yaxşı yazılmışdır, ya da pis. Hamısı bu qədər! (Oscar Wilde)
**7.** Ümidlə açılıb qazancla bağlanan bir kitab, yaxşı bir kitabdır. (Alcott)
**8.** Kitablar, itmiş başların abidələridir. (Sir William Davenant)
**9.** Kitablar, heç solmayacaq bitkilərdir. (Herrick)
**10.** Kitab heç aldatmayan bir yoldaşdır. (Guilbert De Pixrecourt)

Uşaqlara mütaliə tərbiyəsini aşılamağı məhz uşaq bağçalarından başlamağınızı tövsiyə edərdik. Çünki qeyd etdiyimiz kimi müəyyən vədişlərin insanlara kiçik yaşlarda aşılanması gələcəkdə daha səmərəli nəticələr verər. Belə ki, bu yaşda olan uşaqlar gördüklərini və eşitdiklərini daha yaxşı qavrayırlar. Elə bu səbəbdən də bağçalarda mütaliə təbliğinin həyata keçirilməsi məqsədə

müvafiqdir. Bağça yaşlı uşaqlarda mütaliəyə həvəs yaratmaq məqsədilə azyaşlıların kitabxanalara ekskursiyasını təşkil etmək mümkündür. Ekskursiyaya kitabxana haqqında ətraflı məlumata malik olan kitabxanaçının rəhbərlik etməsi daha məqsədəuyğun olar. Belə ki, o uşaqların kitabxana ilə tanışlığı zamanı onları kitabxananın faydaları haqqında məlumatladırmalı, eyni zamanda kitabxanaya yeni daxil olan uşaq kitabları ilə tanış etməli, həmin kitabların məzmunu haqqında qısa, ancaq maraqlı məlumatlar verməlidir.

Digər tərəfdən də kitabxana işçiləri bağçalara gedərək uşaqları kitabxanalar haqqında məlumatlandıraraq onlarda kitaba qarşı sevgi yarada bilərlər. Belə ki, uşaqlar məktəbə getdikləri günü səbirsizliklə gözlədikləri kimi kitabxanalara üzv olub maraqlı kitabları oxuyacaqları günü də səbirsizliklə gözləməlidirlər. Çıxış zamanı kitabxanaçılar uşaqları inandırmalıdırlar ki, onların kitabxanalara üzv yazılması gələcəkdə onların yaxşı bir vətəndaş, vətənə xalqa xeyirli bir övlad kimi yetişməsində mühüm rol oynayır. Biz də sizlərə kitab oxumağın faydalarını təqdim edirik ki, onları gedəcək olduğunuz bağçalardakı və məktəblərdə uşaqlarla paylaşasınız.

**1**. Mütaliə insana həyatı sevdirir.
**2.** Mütaliə düşüncələri yetkinləşdirən, inkişaf etdirən və tezləşdirən əsas qaynaqlardan biridir.
**3.** Mütaliə stressi azaldır.
**4.** Mütaliə zehni açır, kobudluqdan qurtarır.
**5.** Mütaliə ətraf mühiti, dünyanı, insanları gözəl görməyimizi təmin edir.
**6.** Mütaliə bizi "bilən" və “ağıllı” edir.
7. Kitab oxuyan insanlar etibarlı bir ətraf, yaxşı dostlar qazanar.
**8**. Mütaliə söz xəzinəmizi zənginləşdirir.
**9.** Mütaliə danışıq qabiliyyətimizi qüvvətləndirir, nitqimizi inkişaf etdirir.
**10.** Mütaliə mədəniyyətimizi artırır. Bizi hissiyatlı bir insana çevirir.
**11.** Mütaliə iş həyatımızdakı müvəffəqiyyət səviyyəmizi yüksəldir.
**12.** Mütaliə dünyaya baxış bucağımızı dəyişdirir.
**13.** Mütaliə cəmiyyətdəki əlaqələrimizin keyfiyyətini artırır.
**14.** Mütaliə dərs həyatındakı müvəffəqiyyətləri gücləndirir.
**15.** Mütaliə xəyal gücümüzü artırır, hissiyyatlı bir insan kimi yetişməyimizə kömək edir.
**16.** Mütaliə həzz duymağa, zehinimizi gücləndirməyə, qərar vermək qabiliyyətlərimizi inkişaf etdirmək üçün olduqca faydalıdır.
**17.** Mütaliə insanı yetkinləşdirir.

Kitabxanaçılar yalnız uşaqları maarifləndirməklə yetinməməli, eyni zamanda bağça müəllimləri ilə də söhbət aparmalı, kitabxana haqqında onları da məlumatlandırmalıdırlar. Bu zaman onlar azyaşlılar üçün hansı kitabların kitabxanada mövcudluğundan bəhs etməli, hansı kitabların uşaqlar üçün daha məqsədəuyğun olduğunu xüsusilə qeyd etməlidirlər.

4-5 yaşı olan, ancaq oxumağı bacarmayan uşaqlarda oxu vərdişlərini yaratmaq məqsədilə səhərciklər və ucadan oxuların keçirilməsi məqsədəuyğundur. Ucadan oxu üçün seçilən nağıl maraqlı və qısa olmalıdır ki, uşaqlarda fikir çaşqınlığı yaranmasın. Ucadan oxu üçün kitabxanaçı tərəfindən seçilən maraqlı nağıllar,

hekayələr, şeirlər ibrətamiz və tərbiyəvi olmalıdır. Ucadan oxunun maraqlı təşkil olunması azyaşlılarda mütaliəyə həvəs yaradar, onların tez bir zamanda əlifbanı öyrənmək istəyini də artırar. Bu məqsədlə kitabxanalarda “Tülkü həccə gedir”, “Çəhrayı don”, “Keçinin oyunu”, “İki ayı balası”, “Keçi balası və badam ağacı” adlı kiçik həcmli nümunələrin ucadan oxusunu keçirmək yaxşı olar. Uşaqların diqqətini cəlb etmək üçün kitabxanaçıdan əsl aktyor bacarığı tələb olunur. Belə ki, o oxuduğu nağlların və hekayələrin qəhrəmanlarının keçirdiyi hiss və həyəcanı müxtəlif səs tonları, hərəkətləri və intonasiya ilə balaca oxuculara çatdırmalıdır.

İstər azyaşlı məktəblilər, istərsə də bağça uşaqları üçün maraqlı səhərciklərin keçirilməsi uşaqların mütaliə həvəsini artırar. Birinci və ikinci sinif şagirdləri, eyni zamanda bağça uşaqları üçün “Dünyanın ən güclüsü”, “Cırtdan”, “Şir və siçan”, “Dostlar səfərdə” nağılların səhərciklərini keçirsək bu onlar üçün maraqlı olar.

Valideynlərin kitabxanaçılar tərəfindən maarifləndirilməsi olduqca mühüm amildir. Belə ki, valideynlərlə söhbət zamanı onlara bildirmək lazımdır ki, uşaqları mütaliəyə məcbur etməsinlər. Əksinə onlarda mütaliəyə qarşı maraq yaratsınlar. Çünki uşaq psixologiyası elədir ki, uşaqlar onları nəyəsə məcbur etdikdə ondan daha da uzaqlaşırlar. Hamımız bilirik ki, uşaqlar çox vaxt böyüklərin etdikləri hərəkətləri təkrar etməyə çalışırlar. Elə bu səbəbdən də valideynlər boş vaxtlarında mütaliəyə vaxt ayırmalıdırlar. Onlar özləri mütaliə etməklə yanaşı uşaqları üçün də kiçik həcmli nağılları ucadan oxumalı, mütaliəyə qarşı balacalarda həvəs yaratmalıdırlar.

Kitabları balacalara sevdirmək məqsədilə onlar üçün yaşlarına uyğun lakin onların maraqlarına səbəb olacaq sərgilərin keçirilməsi vacib şərtlərdən biridir. Belə sərgilər zamanı uşaqların oxuyıb – yaza bilməməsi nəzərə alınmalıdır. Elə bu səbəbdən də sərgidə rəngarəng şəkilləri olan kitablara üstünlük verilməlidir. Sərgini daha da maraqlı etmək üçün nağıl qəhrəmanlarının oyuncaqlarından da istifadə etmək olar. Sərgiyə gələn oxuculara nağıl qəhrəmanlarının maskaları və kitablar hədiyyə olunmalı, sərgidəki kitablar haqqında onlar ətraflı məlumatlandırılmalıdırlar.

## II Bölmə. 8-16 yaş arası uşaqlarla iş

Məktəb şagirdlərinə mütaliə vərdişləri aşılanarkən onlara göstərilən qayğı bağça uşaqlarına olan qayğıdan tamamilə fərqlənməlidir. Məktəb şagirdləri arasında mütaliəni uşaqlara sevdirmək məqsədilə kitabxana işçilərinin məktəblərdə uşaqlarla, müəllimlərlə və valideynlərlə iş aparması olduqca mühüm bir amildir. Belə ki, uşaqlara hətta kitabxananın yerləşdiyi ünvan, məktəbin yerləşdiyi ərazidən oraya necə getməyin yolları belə izah olunmalıdır. Kitabxanaçılar təkcə şagirdləri maarifləndirməklə kifayətlənməməli, eyni zamanda valideynlərlə və müəllimlərlə də iş aparmalıdırlar. Məktəb şagirdlərini kitabxanalara cəlb etməyin əsas yollarından biri də onların valideynləri ilə söhbət aparmaqdan asılıdır və kitabxanaçıların məktəblərdə və bağçalarda valideynlərlə görüş təşkil etməsi yaxşı nəticələr doğurar. Görüş zamanı kitabxanaya yeni daxil olan ədəbiyyatdan söhbət açılmalı, uşaqların düzgün yetişməsi üçün mütaliənin onların həyatında oynadığı roldan söhbət açılmalıdır. Bu işdə F.Köçərli adına Uşaq Kitabxanasının iş təcrübəsindən faydalanmanızı tövsiyə edərdik.

Ötən il ərzində kitabxanamızda bir sıra mühüm sərgilər təşkil olunmuşdur. Bildiyimiz kimi 2009-cu il hörmətli prezidentimiz İlham Əliyev tərəfindən “Uşaq ili” elan olunmuşdur. Bununla əlaqədar olaraq kitabxanamız tərəfindən mühüm işlər görülmüşdür.

Kitabxanamız böyük bir işin öhdəsindən gələrək “Dünya ədəbiyyatı inciləri” adlı beynəlxalq kitab sərgisini təşkil etmiş, oxucuları bir-birindən maraqlı dünya ədəbiyyatı nümunələrilə tanış etmişdir. Kitabxanamızda təşkil olunmuş bu tədbirdə hətta bəzi səfirliklərin səfirləri və nümayəndələri şəxsən iştirak etmişlər. Onu da qeyd edək ki, sərgidən sonra İtaliya səfiri öz uşaqlıq kitablarını kitabxanamıza hədiyyə etmişdir və bununla da kitabxanamızın oxucularını sevindirmişdir. Göründüyü kimi hazırda da kitabxanamızda təşkil olunmuş dünya ədəbiyyatı nümunələrinin sərgisi hər zaman oxucularımızın diqqət mərkəzindədir. Bundan əlavə “Uşaq ili” və “Almaniya mədəniyyət günləri”nin Azərbaycanda keçirilməsi ilə bağlı “Dünya uşaq ədəbiyyatının inciləri” adlı sərginin davamı olaraq “Alman uşaq ədəbiyyatı” sərgisi təşkil olunmuşdur. Bu da oxucularımızın Alman ədəbiyyatına olan maraqlarının artmasına və onların bir-birindən maraqlı nümunələr ilə tanış olmasına səbəb olmuşdur.

Müasir dövrdə oxucuları kitabxanalara cəlb etməyin əsas yollarından biri də onların sevimli yazıçıları və şairləri ilə görüşlərinin təşkil edilməsidir. Belə görüşlərin təşkili oxucuların fəallığını və oxumaq həvəsini daha da artırır. Kitabxanalarda bu kimi tədbirlərin tez-tez təşkil edilməsi oxucuların daha da fəallaşmasına səbəb olur. Bu sahədə F.Köçərli adına Respublika Uşaq Kitabxanasının gördüyü işlər diqqətə layiqdir. Belə ki, kitabxanamız hər zaman öz oxucularının maraq, tələb və istəklərini nəzərə alaraq onları çoxdandır görüşmək arzusunda olduqları yazıçı və şairlərlə görüşdürür. Bu yaxınlarda kitabxanamızın yazıçı Varislə təşkil etdiyi görüş oxucularımızın marağına səbəb oldu. Tədbir zamanı oxucular fəallıq göstərərək öz suallarını yazıçıya ünvanlayaraq onları maraqlandıran suallara cavab tapdılar. Tədbirin sonunda müəllifin onlara öz imzası

ilə kitablarını hədiyyə etməsi oxucularımızı daha da sevindirdi. Bu kimi tədbirlərin kitabxanalarda vaxtaşırı keçirilməsi oxucuların fəallığını daha da artırır.

Məktəblilər arasında müxtəlif istiqamətli müsabiqələr keçirərək onların mütaliə marağını artırmaq olar. "Ən çox sevdiyim kitab", "Sevimli əsər qəhrəmanım", adlı inşa və ya eyni adlı rəsm müsabiqələri keçirərək onların mütaliə ilə bağlı düşüncələrini, maraq dairələrini öyrənmək olar. Belə ki, kitabxanamız hər il müxtəlif məktəblərdə uşaqlar arasında bir-birindən maraqlı müsabiqələr təşkil etməkdədir. Ötən il kitabxanamızın Uşaq hüquqları Konvensiyasının qəbul edilməsinin 20 illiyi ilə bağlı təşkil etdiyi "Baş rolda mənim hüquqlarım" adlı rəsm müsabiqəsi təkcə uşaqların rəsm çəkmək bacarığını yoxlamaq məqsədini deyil, həm də onlara öz hüquqlarını öyrətmək məqsədini daşıyırdı. Bundan əlavə kitabxanamız "Ekologiya ili"nə həsr olunmuş "Mən dünyamı çəkirəm, sizə ərməğan edirəm" adlı müsabiqəni də təşkil etmiş, ekologiyanın mühafizəsilə əlaqədar azyaşlı oxucularını maarifləndirmişdir.

Son dövrlərdə internet texnologiyasının inkişafı ilə əlaqədar olaraq insanlar daha çox özlərinə lazım olan məlumatları internet vasitəsilə əldə edirlər. Müasir dövrdə artıq bir çox kitabxananın öz saytı fəaliyyət göstərməkdədir. Kitabxanaların öz saytlarında uşaqları maraqlandıran, onları mütaliəyə cəlb edən materialları yerləşdirmələri yaxşı olardı. Burada əsas məsələ texnologiyaya və texnoloji vasitələrə hakim olub ondan düzgün istifadə etməkdir. Ailələr də kitabxanaçılar tərəfindən bu istiqamətdə maarifləndirməli, uşaqlarını mütaliə etməklə məşğul etməli, öz evlərində internetə abunə olaraq, onun uşaqlar tərəfindən istifadəsinə mütləq nəzarət etməlidirlər.

İnternetin səmərəliyindən istifadə etməklə oxuculaımızın fəallığını daha da artıra bilərik. Elə bu səbəbdən də kitabxanaların öz saytının fəaliyyət göstərməsi olduqca müsbət haldır. Belə ki, internetin imkanlarından istifadə edərək geniş oxucu kütləsi də qazanmaq mümükündür. Mütəmadi olaraq kitabxanaya yeni gələn kitablardan, kitabxanada keçiriləcək tədbirlərdən oxucuları daim agah etmək üçün internet ən münasib üsullardan biridir. Oxucuların diqqətini cəlb etdiyi üçün uşaq kitabxanalarının saytları rəngarəng dizaynda olmalı, cizgi film və nağıl qəhrəmanlarının şəkillərindən saytda istifadə edilməlidir. Saytdakı məlumatlar vaxtaşırı dəyişdirilərək yenisi ilə əvəz edilməlidir. Nümunə kimi F.Köçərli adına Respublika Uşaq Kitabxanasının saytını göstərə bilərik. Saytda kitabxananın **xəbərlər** bölməsində kitabxanada keçirilən bütün tədbirlər haqqında məlumatlar yerləşdirilir. Kitabxana eyni zamanda elektron kataloqunu tərtib etmişdir ki, oxucular bu kataloqun köməyilə özlərinə lazım olan ədəbiyyatı tapa bilərlər. Saytda hətta balacalar üçün **Elektron nəşrlər** bölməsi belə yaradılmışdır. Belə ki, bu bölmədə kiçik oxucular üçün bir-birindən maraqlı nağıl kitablarının elektron versiyaları yerləşdirilmişdir. (Tülkü və ilan), (Qızıl şamdan), (Qarı və buzov), (Bulud), (Ağca və Cubbulu), (Tap tapmaca). Valideynlərlə söhbət zamanı kitabxanaçılar onlara öz uşaqları üçün bu nağılları oxumağı məsləhət görə bilərlər.

Uşaqları mütaliəyə cəlb etmək üçün daha münasib və onların diqqətlərini cəlb edəcək üsullar seçmək lazımdır. Bildiyimiz kimi insan diqqəti ixtiyari və qeyri-ixtiyari olmaqla iki yerə ayrılır. Kitabxanaçılar hər iki istiqamətdə hərəkət

edərək uşaqlarda mütaliəyə maraq yaratmalıdırlar. Bunun üçün kitabxanaçılar öz bilik və bacarıqlarına əsaslanmalıdırlar.

Azyaşlılarda mütaliəyə sevgi yaratmaq üçün mütaliəni onlara əyləncəli üsullarla aşılamaq lazımdır. Uşaqlar aparılan işin gedişindən zövq almalı, təbliğatın fərqinə belə varmamalıdırlar. Bu məqsədə nail olmaq üçün kitabxanaçılar uşaqlar üçün düşünülmüş oyunlar hazırlamalıdırlar ki, bu oyunlar uşaqlarda mütaliəyə qarşı sevgi və maraq yatarsın.

Yuxarı sinif şagirdləri üçün daha fərqli düşünülmüş oyunlar tətbiq etmək lazımdır. On-on birinci sinif şagirdləri arasında intellektual yarışlar keçirmək olar. Bu kimi oyunlar oynayan uşaqlarda daha çox öyrənmək və bilmək rəqabəti onları mütaliə etməyə sövq edə bilər. Bundan başqa uşaqlar üçün müxtəlif fənnlər üzrə bilik yarışmaları da təşkil etmək mümkündür. Bununla da şagirdlər müxtəlif fənnlərlə əlaqədar olan kitablarla maraqlanır, onları əldə etməyə çalışırlar. Intellektual oyunlar zamanı iştirakçılara verəcəyiniz sualları sizə təqdim edirik.

**1.** Seneqalda Dakar, İranda Təbriz, İraqda Bəsrə, Bosniya və Hersoqovinada Sarayevo, Türkiyədə İzmir, bəs İtaliyada?

**Cavab.** Neapol Bakı ilə qardaşlaşmış şəhərdir.

**2.** O, bir çox ölkələrdə müvəqqəti olaraq məhdudlaşdırılmışdı. Lakin çox vaxt bu az davam edirdi. Hazırda isə Çinin materik hissəsində, İran, Liviya, Tunis ,Türkiyə və Türkmənistanda məhdudlaşdırılıb. Kayzendə ondan çox istifadə edilir. Söhbət nədən gedir?

**Cavab:** Youtube.

**3.** "***Gəlin qayası***" Şərqdə ilk ....

**Cavab.** müəllifi qadın olan ilk operadır. Müəllifi isə Şəfiqə Axundova.

**4.** O ilk dəfə e.ə. 45-ci ildə Yuli Sezarın sayəsində peyda oldu. Sonralar isə o hər dörd ildən bir peyda olurdu. Biz onu 1600-cü və 2000-ci illərdə də görmüşdük, lakin 1800-cü və 1900-cü illərdə onu görən olmamışdı. Siz isə onun son dəfə nə zaman gözə dəydiyini tapın.

**Cavab:** 2008-ci ildə (o 29 fevraldır.)

**5.** "Kişilər şəhəri" və "kişilər birliyi" hansı şəhəri təmsil edir?

**Cavab.** Mançester. Man United və Man City Manchester şəhərinin komandalarıdır.

**6.** Cənub qütbündə neçə ölkənin sərhədi var:

**Cavab:** heç bir ölkənin

**7.** Rusiyada Novqorod (Новгород) , İtaliyada ...

**Cavab:** Neapol

**8.** 1968-ci ildə İsveçin Dövlət Bankı bu mükafatı təsis etdi?

**Cavab:** İqtisadiyyat üzrə Nobel mükafatı

Mütaliənin təbliğinin ən yaxşı üsulu əyani təbliğat formalarıdır. Ancaq yaxşı olardı ki, müasir dövrdə bu təbliğat ənənəvi üsullarla deyil, yeni texnologiyaya əsaslanaraq həyata keçirilərdi. Kitabxana tədbirlərində elektron plakatlardan, bir-birindən maraqlı slaydlardan istifadə edilməsi oxucuların daha çox diqqətini cəlb edir. Kitabxanamız da öz iş təcrübəsində bu üsullardan geniş istifadə etməkdədir. Bildiyimiz kimi 2009-cu il hörmətli prezidentimiz İlham Əliyev tərəfindən "Uşaq ili", 2010-cu il isə "Ekologiaya ili" elan edilmişdir. Bununla əlaqədar olaraq

kitabxanamızın keçirdiyi tədbirlərdə slaydlara geniş yer verilmişdir. Həmin slaydlar kitabxanamızın saytında **(www.clb.az)** yerləşdirilmişdir.

Kitabxanalar tərəfindən əlvan şəkilli jurnalların kiçik kitabçaların hazırlanıb nəşr etdirilməsi oxucuların marağına səbəb olar. Bu kimi nəşrlərdə uşaqları maraqlandıran suallara cavab verilməli, maraqlı mövzularda və sadə dildə materiallar yerləşdirilməlidir. F.Köçərli adına Respublika Uşaq Kitabxananın hazırladığı "Göy qurşağı" jurnalı artıq 4 ildir ki, azyaşlı oxucuları və onların maarifləndirilməsində böyük rol oynayır. Jurnalların hər bir sayı mütəmadi olaraq kitabxananın saytında yerləşdirilməkdədir.

Yuxarıda göstərdiyimiz bütün təbliğat formalarından istifadə edərək uşaqları mütaliəyə cəlb etmək mümkündür. Hər bir kitabxana öz üzərinə düşən bu mühüm vəzifənin öhdəsindən layiqincə gəlməyə qadirdir. Unutmamalıyıq ki, bu günün uşaqlarını gələcəkdə vətənimizin inkişafında mühüm rol oynayacaq azad vətəndaşlardır. Elə bu səbəbdən də onların xalqa, Azərbaycana layiqli bir şəxsiyyət kimi yetişməsində əlimizdən gələni əsirgəməməliyik!

# M Ü N D Ə R İ C A T

Tərtibçidən.......................................................................................... 3
Giriş....................................................................................................... 4
I Bölmə. 4-7 yaş arası uşaqlarla iş…........................................................ 6
II Bölmə. 8-16 yaş arası uşaqlarla iş......................................................... 9